# İmişlidə qaynar həyat

**Sərin hava, xəfif meh, narın yağış, yayın ilk iki ayını sac üstə dən kimi qovrulmuş Aran torpağının canına məlhəm olub yayılır. Səhərin gözü açılan kimi yollar texnikalarla, əkin sahələri adamlarla dolur. Ayağı yer, əli bel, yaba, kətmən tutan hər kəs iş başında olur. Biçilib qurudulmuş otu sahədən daşıyan kim, bostanda yemiş-qarpız yığan kim. Pambıq tarlalarının ucu-bucağı görünmür. Təzə salınan nar bağlarında ağaclar boy verib, ilk dəfə meyvə gətirib. Hələ tam şirə yığmamış üzümlərin salxımının ağırlığına tənəklər dözmür. Bir tərəfdən Kür, o biri tərəfdən isə Araz səhər-axşam aramla axmağındadır...**

**Bura Aran bölgəsinin "ağır artilleriyası" olan İmişlidir. Davamlı olaraq həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində rayonun görkəmi əvvəlki vaxtlara nisbətən xeyli dəyişib. İlk növbədə, həm ərazisindən keçən magistral, həm də rayon mərkəzini kəndlərlə birləşdirən yerli əhəmiyyətli yollar yüksək səviyyədə bərpa edilib. Elə bu rahatlığa görə "ucqar rayon", "ucqar kənd" ifadələri leksikondan çıxmaqdadır. Rayonun əksər yaşayış məntəqələrində işıq, qaz, su, rabitə kimi infrastruktur obyektləri yeniləndiyindən şəhərlə kənd arasında bir elə fərq də qalmayıb.**




### Əkin dövriyyəsinə 10 min hektar torpaq cəlb edilib

Bütün Qafqazın ən möhtəşəm sənaye obyekti — İmişli şəkər zavodu işə düşəndən bəri burada sənaye ilə kənd təsərrüfatının sanki yarışı başlayıb. Bu, özünü statistik rəqəmlərdə də göstərir. 2018-ci ilin birinci yarısında rayon üzrə ümumilikdə 172,7 milyon manatlıq məhsul istehsal edilib və yaxidmət göstərilib ki, onun 35.5 %-i sənayenin, 34.6 %-i kənd təsərrüfatının payına düşür. Əsasən mövsümi işlər görülən rayonda istehsal, emal müəssisələrinin fəaliyyəti məşğulluq probleminin həllinə də böyük töhfə verib.

Son illər kənd təsərrüfatının, xüsusən onun ənənəvi sahələrinin inkişafı, emal müəssisələrinin xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi, habelə ixracyönümlü məhsulların istehsalının stimullaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər nəticəsində aqrar sektorda böyük canlanma yaranıb. Cari il Nazirlər Kabinetinin qərarı ilə İmişli rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 10 min hektarının təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilib. Daha 6 min hektarla bağlı sənədləşmə işləri aparılır. Vaxtilə "ilan mələyən", yalnız yabanı bitkilərin yetişdiyi çöllərdə, şoran düzlərdə geniş miqyasda meliorasiya-irriqasiya işləri aparılır, torpaqlar yuyulub münbitləşdirilir.

Bu il rayon ərazisində 13 324 hektarı buğda olmaqla — ümumilikdə 19 084 hektar sahədə taxıl bitkiləri yetişdirilib və 68 371 ton məhsul toplanılıb. Məhsuldarlıq buğdada 37,3, arpada 32,3 sentner olub. 209 hektar sahədə kartof, 109 hektar sahədə şəkər çuğunduru, 322.6 hektar sahədə tərəvəz və 329.4 hektar sahədə bostan bitkiləri əkilib. Cari ildə rayon ərazisində 134 kümçüyə ipəkqurdu paylanaraq, 10 tondan çox yaş barama istehsal edilib ki, bu da ötən illə müqayisədə 25.6 % çoxdur.

### 125 qram toxumdan 267 kiloqram məhsul alınıb

Aranlı kəndindən olan fermer Fəyyaz İbayev deyir ki, baramaçılıq onlara tanış sahədir:

"Ata-babalarımız şəraitsiz yerlərdə belə ipəkqurdu saxlaya biliblər. Bu məqsədlə kəndimizdə tut bağı salınıb.Yaxşı ənənələri qorumaq, unudulanları yada salmaq lazımdır. Baramaçılıq gəlirli sahədir. Son illər hökumətin təşviqindən sonra bu sahədə xeyli qazanılır. Eyni zamanda, yeni bağlar salınır.

Bu il 125 qram toxum almışdıq. Məndən başqa kəndin daha üç sakini bu işə qoşuldu. 267 kiloqram məhsul təhvil verdik və hər birimiz 350 manat gəlir əldə etdik".

Kəndlilər dolanmağın çəmini tapıb, fərdi təsərrüfatlarında, az da olsa, hər məhsuldan yetişdirirlər. İndi İmişlidə də ilin bütün fəsillərində əhalini təzə tərəvəz məhsulları ilə təmin edən müasir istixanalar yaradılıb. Yerli ehtiyacların ödənilməsi, məhsuldarlığın yüksəldilməsi üçün toxumçuluq təsərrüfatlarının sayı artmaqdadır.

İmişli Kənd Təsərrüfatı İdarəsinin rəisi Səlim Məhərrəmovdan öyrənirik ki, arıçılığın inkişafının stimullaşdırılması barədə sərəncamdan sonra bu sahəyə də maraq artıb: "Hazırkı vaxtadək qeydə aldığımız arıçıların sayı 91 nəfərdir. Amma dövlət dəstəyinə görə müraciət edən, maraqlanan da çoxdur".

### Pambıqçılar əvvəlki şöhrəti qaytarmaq əzmindədirlər

Hazırkı dönəmdə aqrar sektorda əsas prioritet sahə pambıqçılıqdır. Bu il İmişlidə 13 645 hektar pambıq əkini aparılıb. Becərmə işləri əsasən başa çatdırılıb, hazırda zərərvericilərə qarşı son mübarizə tədbirləri görülür.

İmişlidə pambıq yetişdirilməsi üçün həm uyğun iqlim şəraiti, həm də bu sahə üzrə çoxillik ənənə var. Ötən əsrin 70-80-ci illərində bu rayonda 50 min tona yaxın pambıq istehsal edilib. İqlim həmin iqlim, torpaq həmin torpaqdır. Elə insanları da zəhmətkeş, "daşdan çörək çıxaran"...

"Sovet hakimiyyətinin süqutuna, kollektiv təsərrüfatların ləğvinə, yeni mülkiyyət münasibətlərinin yaranmağına və bazar iqtisadiyyatına keçid belə bizi bu ənənədən ayırmayıb. Alış qiymətinin ucuz, indiki qədər dövlət dəstəyi və maliyyələşmə mənbəyi olmadığı vaxtlarda da biz pambıq yetişdirməkdən imtina etmədik".

Bunu "STS-Agro" MMC-nin Aranlı kəndi üzrə nümayəndəsi Sərvan Novruzov deyir. Onun sözlərinə görə dövlət qayğısı göstərildiyinə, maliyyələşmə və texnika ilə təminat yaxşılaşdırıldığına görə əkinin həcmini ilbəil artırır və yaxşı nəticələr əldə edir: "Ötən il 220 hektar sahədə əkin aparmışdıq. Tədarük müəssisəsinə kondisiya olunmuş şəkildə 625 ton məhsul təhvil verdik. Bu il pambıq əkininin həcmini 240 hektara çatdırmışam. Yaxşı da məhsul gözləyirik".

Qabaqcıl təsərrüfat adamı bildirir ki, pambıqçılıq əmək tutumlu sahə olduğundan, kənd yerlərində əhalinin məşğulluğu probleminin aradan qalxmağında böyük rol oynayır:

"Təkcə mənim məsul olduğum sahədə alaq otlarının təmizlənməsində 45 nəfərədək işçi çalışıb. Onların hər birinin aylıq qazancı 300 manata yaxın olub. Əkin sahələrinin suvarılması işinə də əlavə işçilər cəlb edilib. Bəzi fermerlər bu işləri özləri görür, qazanc da özlərinə qalır. Tədarük müəssisəsi gələcəkdə təhvil veriləcək məhsulla hesablaşma şərtilə avans olaraq bu pulları verir ki, adamlar ehtiyaclarını vaxtında ödəyə bilsin".

### Su bütün canlılar üçün həyat mənbəyidir...

Yay dövründə Aran bölgəsinin üzləşdiyi ən ciddi problemlərdən biri suvarma suyu ilə təminatdır. Keçən il bölgədə su çatışmazlığı problemi bəzi əkinlərin yanmağına, yaxud məhsuldarlığın azalmasına səbəb olmuşdu. Fermerlər bildirirlər ki, cari il əkinləri vaxtlı-vaxtında suvara biliblər. Rayon ərazisindən keçən R-2, Gavur arxı, Arazyanı, MTS, Qızılarx, Şirinqum kanallarında, Araz çayının ikinci qolunda əsaslı şəkildə lildəntəmizlənmə işləri görülüb.

Sudan söz düşmüşkən, İmişli şəhərinin bütün küçə və məhəllələri içməli su ilə təmin olunub. Bundan əlavə, qaçqın və məcburi köçkünlər üçün salınmış Yeni Bəhrəmtəpə qəsəbəsində 550 mexaniki su sayğacı quraşdırılıb. Kür və Araz çayları son illər çirklənməyə məruz qaldığından, kənd yerlərində yaşayan əhalinin ekoloji cəhətdən təmiz içməli su ilə təmin edilməsi məsələsi də ön plana keçib. Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli 2754 saylı sərəncamına uyğun olaraq rayonun 43 kəndində modul tipli sutəmizləyici qurğu quraşdırılıb, Şahverdili, Göbəktala, Məhəmmədli və Rəsullu kəndlərinə yeni su xətləri çəkilib.

İçməli su ilə təminata belə diqqət ayrılması, həm də dövlətin vətəndaşa olan münasibətinin təzahürüdür. Hələ 2012-ci ilin oktyabrında İmişlidə səfərdə olan Prezident İlham Əliyev su anbarları kompleksinin istifadəyə verilməsi mərasimində çıxış edərkən demişdi:

"Mən əminəm ki, bu layihələr, görülən işlər mütləq öz müsbət təsirini insanların sağlamlığında göstərəcəkdir. Çünki insan amili bizim üçün əsas sosial məsələdir. Biz, əlbəttə, iqtisadi islahatları uğurla icra edirik, bölgələr inkişaf edir, gözəlləşir, abadlaşır, yeni iş yerləri açılır. Ancaq bütün bu işlərin təməlində və mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalıdır. Azərbaycan vətəndaşı yaxşı şəraitdə gözəl şəhərlərdə yaşamalıdır. Bütün infrastruktur layihələri icra edilməlidir ki, biz dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsindən geri qalmayaq. Biz bunu edirik, edəcəyik".

### Vətəndaşlar yaşadıqları yerdə qəbul olunur

Söhbət etdiyimiz yaşlı sakin Mahmud Məmmədov deyir ki, həm sosial, həm də fərdi problemlərin öyrənilməsi və operativ həllində vaxtaşırı yerlərdə "səyyar qəbul" keçirilməsi də mühüm rol oynayır:

"Rayon icra hakimiyyətinin başçısı və aparatın məsul işçiləri, rayonun idarə və müəssisələrinin, hüquq-mühafizə orqanlarının rəhbərləri camaat qarşısına çıxıb onların şikayət və təkliflərini dinləyir. İcra başçımız Vilyam Hacıyev olduqca səmimi, sadə insandır, hamıya söz demək imkanı yaradır. Bu zaman ictimai məsələlərlə yanaşı, hər kəs fərdi problemini də qaldıra bilir. Bəzən bir adamın işi bir neçə idarə ilə əlaqəli olur. Daha bundan ötrü uzaq kənddən rayon mərkəzinə gətməyə, idarə rəhbərinin hər birinin qəbuluna düşməyə, saatlarla vaxt itirməyə ehtiyac qalmır".




### Sosial layihələrin sayı artıb

Sakinlərin işi bundan sonra daha da asanlaşacaq. Belə ki, bölgə rayonlarının əhalisinə xidmət üçün nəzərdə tutulan "Asan həyat" kompleksi İmişli şəhərində inşa edilir. Hazırda həmin obyektin tikintisi başa çatmaq üzrədir. Müasir üslubda tikilən, 4 mərtəbəli, 19 metr hündürlükdə olan bina şəhərə, həm də xüsusi gözəllik verəcək. Hazırda onun ətrafında da abadlıq işləri görülür. Müharibə əlilləri və şəhid ailələri üçün inşa edilən 6 mərtəbəli, 54 mənzilli yaşayış binasında da tamamlanma işləri görülür. Yerli icra hakimiyyətindən bildirildi ki, rayonun qəsəbə və kəndlərində də bu təbəqədən olan insanlar üçün fərdi yaşayış evlərinin tikintisi nəzərdə tutulub.

Ümumiyyətlə, eyni vaxtda icra edilən sosialyönümlü layihələr çoxdur. Son 10 ildə rayonun ümumtəhsil məktəblərinin 41-ə yaxın tədris binası yenidən inşa edilib və ya ona bərabər tutulan səviyyədə əsaslı təmir olunub. Məktəbəqədər yaşda olan uşaqların ictimai tərbiyəyə cəlb edilməsi üçün yeni körpələr evi-uşaq bağçaları açılıb. Rayonun 37 yaşayış məntəqəsi tam qazlaşdırılıb. Daha iki: Qızılkənd və Aranlı kəndlərinə qaz xətti çəkilişinə başlanılıb. Əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması və səhiyyə obyektlərinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də zəruri işlər görülüb.

Bütün bunlar əhalinin həyat səviyyəsinin yüksəlməyinə səbəb olub. Təkcə cari ilin 6 ayı ərzində İmişlidə 1501 yeni iş yeri açılıb ki, onun 159-u daimidir. Rayon üzrə orta aylıq nominal əməkhaqqı 325 manata yüksəlib. Azərbaycan Prezidenti bu uğurları hələ 6 il əvvəldən görərək demişdi:

"İqtisadi və siyasi cəhətdən müstəqil Azərbaycan dövləti uğurla inkişaf edir. Uğurumuzun dayanıqlı, davamlı olması üçün bütün bölgələr sürətlə inkişaf etməlidir. Bir daha demək istəyirəm ki, İmişli rayonunda gedən inkişaf çox müsbətdir, uğurludur".



**Ərəstun ABDULOV,**
**"Respublika".**